Azərbaycan Respublikasının
Təhsil İnstitutu

Təhsil Texnologiyaları Mərkəzi
Olimpiadalara hazırlıq

# İcma əsaslı uşaq inkişaf mərkəzində 3-5 yaşlı uşaqların inkişafı PROQRAMI



# Mündəricat


I. Giriş ....................................................................................................... 3

II. İNKİŞAF SAHƏLƏRİ .................................................................................. 5

2.1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik ................................................. 5

2.2. Sosial və emosional inkişaf ..................................................................... 8

2.3. İdrakın inkişafı ....................................................................................... 10

2.4. Estetik inkişaf və yaradıcılıq ................................................................. 15

2.5. Oyun uşağın əsas fəaliyyətidir ............................................................. 17

III. UŞAQLARLA İŞLƏMƏYİN PRİNSİPLƏRİ ...................................................... 18

IV. 3-5 YAŞLI UŞAQLAR ÜÇÜN İNKİŞAF PROQRAMI ......................................... 21

# I. Giriş

## Erkən yaş dövründə təhsilin əhəmiyyəti

Erkən yaş dövrü uşaq şəxsiyyətinin inkişafının elə bir dövrüdür ki, bu dövrdə uşağın ətraf mühit haqqında təsəvvürləri formalaşır, o, fiziki və psixoloji cəhətdən intensiv surətdə inkişaf edir. Erkən yaş dövründə təhsil uşağın dünyaya gəldiyi ilk aylardan öyrənməsindən başlayır.

## Nə üçün erkən yaş dövründə öyrənmə əsas başlanğıc hesab edilir?

Məlumdur ki, erkən uşaqlıq dövrü uşaqların potensial imkanlarının inkişafı dövrüdür.

Erkən yaş dövründə təhsil uşağa ətraf mühitin kəşf olunmasına və orada baş verən dəyişiklikləri şüurlu şəkildə dərk etməsinə, sosiallaşmasına, digər uşaqlar və böyüklərlə əməkdaşlıq etməsinə, onlarla əlaqələr qurmasına imkan yaradır. Məhz bu dövrdə sağlamlığın, uşaq şəxsiyyətinin inkişafının, potensial imkanlarının, istedad və qabiliyyətlərin əsası qoyulur. Erkən yaş dövründə öyrənilən hər bir bacarıq və vərdişlər onun məktəbdə oxumasına, eləcə də sonrakı həyatı boyu necə öyrənməsinə böyük təsir göstərir.

Erkən təlim uşağın doğulduğu gündən başlanan öyrənmədir. Sizin uşağınız hər yerdə və hər zaman öyrənir. Belə ki, sizin göstərdiyiniz istənilən gündəlik fəaliyyətlər (yemək hazırlamaq, bazarlıq etmək, parkda gəzmək, nağıl və mahnıları bölüşmək və s.) vasitəsilə uşağın öyrənmək imkanı var. Bu halda uşaqlar xeyirxah, özünəinmalı və öyrənməyi sevən, həmçinin məktəbdə və gələcəkdə bacarıqlı şəxsiyyət kimi formalaşmasına köməklik göstərəcəkdir.

Uşaqlar aşağıdakıları öyrənirlər:

- Dost tapmağı
- Oynamağı və tədqiqat aparmağı
- Digərlərini eşitməyi, danışılanlar barədə öz ideyalaranı söyləməyi, yaradıcı və sərbəst olmağı
- Digər uşaqlar və böyüklərlə əməkdaşlıq etməyi
- Təmkinliliyi, müzakirə etməyi və bölüşməyi
- Düşünməyi, problemin səbəbini müəyyənləşdirməyi və həll etməyi
- Özünün və başqalarının keçirdiyi hissləri başa düşməyi
- Nitiqini təkmilləşdirməyi, düşünməyi və riyazi məsələlərin həllini

“Erkən yaş dövründə öyrənilən hər bir bacarıq və vərdişlər onun məktəbdə oxumasına, eləcə də sonrakı həyatı boyu necə öyrənməsinə böyük təsir göstərir.”